"Xalq qəzeti".-2009.-14 oktyabr.-N 228.-S.4.

# Bakıda İslam Konfransı Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransı işə başlamışdır

**Oktyabrın 13-də "Gülüstan" Sarayında "Bakı-İslam Mədəniyyətinin Paytaxtı - 2009" mədəniyyət ili çərçivəsində Bakıda İslam Konfransı Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransı işə başlamışdır**.

Dünyanın 45-dən çox ölkəsindən, eləcə də İSESKO, İRSİKA, Avropa Şurası, TÜRKSOY və digər təşkilatlardan 200-dən çox iştirakçının qatıldığı tədbirdə əvvəlcə "Qurani - Kərim"dən ayələr oxunmuşdur.

Baş nazirin müavini Elçin Əfəndiyev Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına təbrikini oxumuşdur.

İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) baş direktoru Əbdüləziz bin Osman əl - Tuveycri konfransı açaraq, təşkilatçılığa və qonaqpərvərliyə görə başda Prezident İlham Əliyev olmaqla Azərbaycan xalqına təşəkkür etmiş, mədəniyyətlərin qovuşuğunda yerləşən Azərbaycanın sivilizasiyalararası dialoqa böyük töhfələr verdiyini demişdir. Ölkəmizin İSESKO ilə əməkdaşlığını yüksək qiymətləndirən Əbdüləziz bin Osman əl - Tuveycri ümidvar olduğunu bildirmişdir ki, Azərbaycan müdrik rəhbəri ilə daha böyük uğurlar qazanacaqdır.

İKT-yə üzv ölkələrin mədəniyyət istiqamətində əlaqələrinin daha dərinləşməsi üçün bir neçə proqram hazırlandığını diqqətə çatdıran baş direktor, eyni zamanda turizm sahəsində də əməkdaşlığı genişləndirməyin əhəmiyyətini vurğulamışdır.

Əbdüləziz bin Osman əl - Tuveycri İslam Konfransı Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransının mədəniyyət sahəsində əməkdaşlığı dərinləşdirmək baxımından əhəmiyyətini vurğulamışdır.

İslam Konfransı Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin V konfransına sədrlik etmiş Liviyanın mədəniyyət naziri Nouri Habeidi ötən müddətdə görülmüş işlər haqqında danışmışdır.

İSESKO-nun nümayəndəsi Abdel Moez Bouxari çıxışında bildirmişdir ki, Azərbaycanın İslam mədəniyyətinin tarixində özünəməxsus yeri vardır. Milli və müasir sivilizasiyaların qovuşuğunda yerləşən bu diyar İslam mədəniyyətinə əvəzsiz töhfələr vermişdir.

Natiq təhsil sahəsində əməkdaşlığa diqqətin artırılmasının vacibliyini vurğulamışdır.

İSESKO-nun nümayəndəsi demişdir ki, Bakı konfransında mədəniyyət, mədəniyyətlərarası dialoq, mədəni turizm, incəsənət, mədəni irs və digər sahələrdə regional və beynəlxalq layihələrin həyata keçirilməsinə təşəbbüs göstərməli və bu sahələrdə olan problemlərimizin həlli istiqamətində konkret addımlar atmalıyıq.

* * *

Tədbirdə İslam Konfransı Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransına sədrlik Azərbaycana keçmişdir.

Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirmişdir ki, 2007-ci ilin noyabrında Liviyanın Tripoli şəhərində keçirilən İslam ölkələrinin mədəniyyət nazirlərinin V konfransında Bakı şəhərinin 2009-cu il üçün "İslam Mədəniyyətinin Paytaxtı " elan olunması və nazirlərin VI konfransının Bakıda keçirilməsi qərara alınmışdı. Bununla əlaqədar olaraq "Bakı-İslam Mədəniyyətinin Paytaxtı - 2009" mədəniyyət ilinin proqramına 100-dən artıq milli və beynəlxalq miqyaslı tədbir daxil edilmişdir. Nazir "Bakı-İslam Mədəniyyətinin Paytaxtı - 2009" çərçivəsində keçirilmiş tədbirlər haqqında məlumat vermişdir.

Ə.Qarayev İslam Konfransı Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransının təşkilinə göstərdiyi diqqətə görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirmişdir ki, Azərbaycan hazırda böyük inkişaf yolunu yaşayır. Azərbaycan dövləti öz imkanlarından istifadə edərək başqa istiqamətlərdə olduğu kimi, mədəniyyət sahəsində islahatlar, proqramlar həyata keçirir. Ölkəmizin bütün mədəniyyət müəssisələrində yenidənqurma və bərpa işləri aparılır, onlar ən müasir texnologiyalarla təmin edilir. Bu istiqamətdə həm Avropa, həm də İslam ölkələrinin mütərəqqi təcrübəsindən istifadə olunur.

Nazir Heydər Əliyev Fondunun prezidenti, YUNESKO - nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın mədəniyyət sahəsinə göstərdiyi diqqəti xüsusi vurğulamışdır.

Azərbaycan dövlətinin İslam mədəniyyətinə aid abidələrin, tarixi irs nümunələrinin qorunması və mühafizəsi istiqamətində ən yüksək səviyyədə tədbirlər keçirdiyini diqqətə çatdıran Ə.Qarayev təəssüflə bildirmişdir ki, Ermənistanın işğalı altında olan ərazilərimizdə mədəniyyət ocaqları, dini abidələr, məscidlər dağıdılmışdır.

Nazir ümidvar olduğunu bildirmişdir ki, Bakı konfransı əməkdaşlığımızın genişləndirilməsinə müsbət təsir göstərəcəkdir.

* * *

Konfrans işini "Dialoq və mədəni müxtəlifliyin təşviqi" mövzusunda "dəyirmi masa" ilə davam etdirmişdir.

Bildirilmişdir ki, "dəyirmi masa" 2008-ci ildə Bakıda keçirilmiş Avropa ölkələrinin mədəniyyət nazirlərinin konfransında əsası qoyulan "Mədəniyyətlərarası dialoqa dair Bakı prosesi" çərçivəsində həyata keçirilir.

Diqqətə çatdırılmışdır ki, bu konfransdan əvvəl Bakıda İslam dünyasının mədəni strategiyasının yerinə yetirilməsinə dair məşvərətçi şuranın IX iclası olmuşdur. İclasda bugünkü konfransda qəbul ediləcək sənədlər müzakirə edilmişdir. Bildirilmişdir ki, oktyabrın 16 - 17-də Bakıda TÜRKSOY mədəniyyət nazirlərinin daimi Şurasının 26-cı toplantısı keçiriləcəkdir.

"Dəyirmi masa"da Liviya, Mərakeş, Fələstin, Bolqarıstan, Suriya, Sudan, Polşa, Gürcüstan, Avstriya, Malayziya, Misir, Səudiyyə Ərəbistanı və digər ölkələrin təmsilçiləri çıxış etmişlər.

Vurğulanmışdır ki, bu "dəyirmi masa"nı "Bakı prosesi: sivilizasiyalararası dialoqa yeni çağırış" kimi qiymətləndirmək olar.

Çıxışlarda müxtəlif təkliflər səsləndirilmiş, mövcud problemlər və onların həlli yollarından danışılmışdır.

Bildirilmişdir ki, müzakirələrdə irəli sürülən fikirlər müxtəlif mədəniyyətlərarası dialoqun təşviqinə töhfəsini verəcəkdir. Bunun üçün real işlər və konkret təkliflər irəli sürülməlidir.

"Dəyirmi masa"ya yekun vuran Əbülfəs Qarayev demişdir ki, biz artıq "Dialoq paytaxtı" ideyası üzərində düşünməliyik. Bakı şəhəri "Dialoq paytaxtı" statusunu ilk olaraq öz üzərinə götürə bilər. Bu, olduqca böyük məsuliyyətdir. İnanıram ki, bu təklif iştirakçılar tərəfindən müsbət qiymətləndiriləcəkdir.

Nazir vurğulamışdır ki, 2011-ci ildə Azərbaycanda "Ümumdünya mədəniyyətlərarası dialoq forumu" təşkil ediləcəkdir. Bu forum Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə reallaşacaqdır.

Sonra konfransın gündəliyi təsdiq edilmişdir.

Konfrans işini İslam dünyası üçün mədəni strategiyanın həyata keçirilməsi sahəsindəki səylər ətrafında müzakirələrlə davam etdirmişdir.

İslam Konfransı Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransı oktyabrın 15-dək davam edəcəkdir.